# İKİ DOST, İKİ QOHUM, İKİ ŞƏHİD



*Şəhid Elvin İSMAYILOV*

**BİR SEVGİ VAR...**

Bir sevgi var, bitməzdir,
Şəhidlərtək ölməzdir...
Bu sevgiyə 9 ay,
Həyatda bəs etməzdir.

O sevgi ki, gülləylə,
Sadəcə yaralandı.
Bilirdi ki, Şəhidin,
Ruhuyla sağalandı.

Qısqandırırdı yadı,
Elvin-Şəhlaydı adı.
Sevgi yoluyla getdi,
Cəng yoluyla başladı.

Anası istəyirdi,
Toyu olsun Elvinin.
Davam etsin şad günlər,
Kökü kəsilsin qəmin.

Şəhlanı tanıyanda,
Heç inana bilmədi.
Onu qaynanatək yox,
Doğma anatək sevdi.

Sonra toyları oldu,
Şəhla ilə Elvinin.
Şəhla ulu ocağa,
Həvəslə köçdü gəlin.

Elvin hərbçi idi,
Şəhla bunu bilirdi.
Buna görə o, daim
Fəxr edir, sevinirdi.

Ağlına gəlməmişdi,
Elvin Şəhid olacaq.
9 aylıq xəyallar,
Bir anda yıxılacaq.

Şəhla kitab yazmışdı,
"And yeri" - Şəhidlərə.
Yazanda bilməmişdi,
Dönəcək o günlərə.

Şəhid yarın görəndə,
Onun dolurdu gözü.
Bilməzdi, Şəhid yarı,
Olacaq bir vaxt özü.

Özün hazırlayırdı,
O, bir əsgər yarıydı.
Ondan ayrı düşəndə,
Onu xatırlayırdı.

"Hifz elə Elvinimi,
Yarımı qoru, Allah!
Onsuz - ölmüşəm demək,
Çəkərəm iztirab, ah".

Sidqi-ürəkdən idi,
Şəhlanın bu duası.
Elvinli olmalıydı,
Sevgi dolu dünyası.

"Dünyada ayrılıq var,
Dünyada sərhədlər var.
Birdən mənə qıyarlar,
Tez ayrılarıq, ey yar."

Elvininürəyində,
Bu fikir iz salmışdı.
Şəhlanın arzuları
Ürəyində qalmışdı.

Heç 9 ay keçmədi,
O gözəl toylarından.
İntiqam alınırdı,
Erməni cəlladından.

Müharibə başladı,
Düşmən ələcsiz aldı.
Şəhidlər də verildi,
Yerləri çox boş qaldı.

Şəhla nikbin olaraq,
Onu yola salırdı -
Elvin gedirdi cəngə,
Şəhlası tək qalırdı.

İçi için yeyirdi,
"Yar dardadır" bilirdi,
Alınan xəbərlərdən,
O çox ümidlənirdi.

Artıq ilk qələbələr,
Çaldı bizim ordumuz.
Neçə canlarla azad
Edilirdi yurdumuz.

Birdən xəbər kəsildi...
Elvindən səs gəlmədi...
Şəhla fikrə dalırdı,
Ümidlər azalırdı...

"Sənə qurban, canım yar,
Sevgim, mehribanım yar,
Qəlbim yerindən çıxır,
De, ordan nə xəbər varə"

Son nikbin arzu, xəyal,
Şəhla üçün quruldu.
Şəhla rahatlaşmadı,
Alovlandı, qovruldu.

Dəqiqələr, saatlar,
Ömürdən bir-bir keçir,
Səssizcə quruyur yar,
Şəhid şərbətin içir...

Gəlir hərbdən bir xəbər,
Olmadılar bi xəbər.
Şəhla xəbər eşitcək,
Həyat onunçün durdu,
Elvini Şəhid oldu...

Ümid intihar etdi,
Ruhun həyatı bitdi...
Onun gözləri doldu,
Elvini Şəhid oldu...

"Axı, vaxtımız vardı,
Demədin, zaman dardı.
Sevgimizdən, əsgər yar,
Olmadı bir yadigar.

Doyunca danışmadıq,
Söhbət edib gülmədik.
Fələk izin vermədi,
Sonadək sevəmmədik..."

Həmin gün Şəhla üçün,
Sanki bir zülüm, ölüm.
Deyirdi o: "Tək qoydun,
Məni sən, gözəl gülüm."

O sonadək gözlədi,
Elvinin qisasını.
Yeri gələndə etdi
Şəhidlərin yasını.
Yeri gələndə nikbin,
Fikiri oldu onun.
Qələbəsi gəlirdi,
Onun ana yurdunun.

Sonda noyabr gəldi,
8-i tez yetişdi.
Azərbaycan Ordusu,
Qazandı o Zəfərin!
Qisas alındı, Elvin!

Bu sevgi güllü bahar,
Bu sevgiyə yağmaz qar,
Hələ də bir sevgi var,
Dünya durduqca yaşar!



***14.06.2021***

*Şəhid Qara BALAKİŞİYEV*

Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi Qara Əmirxan oğlu Balakişiyev 1994-cü il iyulun 11-də Xocavənd rayonunda anadan olub. Ailəli idi. İki qızı yadigar qaldı.

Qara Balakişiyev 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi. Azərbaycan Ordusunun kiçik çavuşu olan Qara Balakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qara Balakişiyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Horadiz şəhərində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

**QARABAĞIN ÜZÜNÜ AĞ EDƏN QARA**

..

***(11.07.1994-cü il Xocavənd rayonu Əmrallar kəndi - 27.09.2020-ci il)***

Yazıldın ömürlük sən yaddaşlara,
Adın həkk olundu qara daşlara.
Gedişinlə vurdun qəlblərə yara,
Qarabağın ləkəsin silən Qara,
Qarabağın üzün ağ edən Qara.

Yaşadın Qarabağ həsrəti ilə,
Böyüdün ata nəsihəti ilə,
Allahın verdiyi qüdrəti ilə,
Bayraq sancdın azad olan yurdlara!
Qarabağın üzün ağ edən Qara.

Güc göstərdin o Aprel günlərində,
"Bir də dönəcəyik!" dedin düşmənə,
Möhtəşəm dönüşün qalıb dillərdə,
Böyük dərs verdin namərd yağılara!
Qarabağın üzün ağ edən Qara.

Gedişin təskinlikdimi, qəmdimiə
Sən xoş xasiyyətli, həm də səmimi,
Fəth eylədin ürəkləri, qəlbləri,
Sadiq çıxdın bu elə, bu ocağa!
Qarabağın üzün ağ edən Qara.

Günlər keçdi, vədə yetdi, vaxt gəldi,
Düşmənlərin özlərini itirdi,
Başladı Qarabağ müharibəsi,
Bu vətən itirdi igidlərini,
Bu Vətən qazandı ilk Zəfərini.

Qisas odu qaynayırdı qanında,
Düşmənlərdən ilk qisasını aldın.
Sən Mirqamət qardaşının yanında,
Şəhidliyin Zirvəsinə ucaldın!
Yaddaşlarda bir qəhramantək qaldın.

O vaxt İmam Hüseyn səni dərmişdi,
Bir gül kimi öz köksünə sərmişdi,
Ruhun Səni Zirvələrə apardı.
Allah Səni Vətənə pay vermişdi,
Vətən Səni Allaha pay qaytardı.

Döndün bir soyuq məzara, qardaşım.
Ürəklərə vurdun yara,qardaşım.
Qisas alan, Şəhid olan yurddaşım,
Cənnətdə dostları ara qardaşım,
Sənlə fəxr edirik, Qara qardaşım!



***Sevindik*** Nəsiboğlu